*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 16 sentyabr 2020-ci il | № 58 (2476) | Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev: Bu gün Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu bütün dünya üçün bir nümunədir

*Bu gün biz Bakının işğaldan azad edilməsinin 102-ci ildönümünü qeyd edirik. Həmin dövrün çətinliklərinə baxmayaraq qardaş Türkiyə Azərbaycandan öz yardımını əsirgəmədi. Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu Azərbaycana gələrək mübarizəyə qoşuldu. Gəncədən Bakıya qədər şərəfli döyüş yolu keçən Qafqaz İslam Ordusu yeni yaradılmış Azərbaycan Milli Ordusu və könüllülərlə birlikdə Bakını erməni və bolşevik işğalından azad etdi. Bu yolda canlarını qurban verən şəhidlərimizi dərin hörmət və ehtiramla yad edirəm. Onların əziz xatirəsi daim bizim qəlbimizdədir.*

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktubunda yer alıb.

Dövlətimizin başçısı məktubda qeyd edib ki, Azərbaycan xalqı üçün 15 sentyabr olduqca əlamətdar bir gündür. Məhz həmin gün Bakı işğaldan azad edilərək ilk dəfə müstəqil Azərbaycan dövlətinin paytaxtı elan olundu. Bu tarixi qələbədən sonra Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun zəfər yürüşü Bakı sakinləri tərəfindən böyük coşqu və sevinclə qarşılandı.

İki il bundan əvvəl həmin coşqu və sevgi Bakı küçələrində bir daha canlandırıldı. Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə keçirilmiş hərbi paradda Azərbaycan və Türkiyə əsgərlərinin iştirakını Sizinlə birlikdə izlədik. Şübhəsiz ki, bu tarixi hadisə həmişə yaddaşlarda qalacaqdır.

Prezident İlham Əliyev vurğulayıb ki, bu gün də Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu bütün dünya üçün bir nümunədir. İyulun 12-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatına qardaş Türkiyə Respublikası qəti mövqe bildirdi. Sizin Tovuz hadisələri ilə bağlı birmənalı bəyanatlarınızı Azərbaycan xalqı yüksək qiymətləndirir. Azərbaycan da hər zaman qardaş Türkiyənin yanındadır və bütün məsələlərdə öz tərəddüdsüz dəstəyini nümayiş etdirir. Azərbaycan-Türkiyə strateji müttəfiqliyi və tərəfdaşlığı regionda sülhü və təhlükəsizliyi təmin edən, əməkdaşlığın inkişafına töhfə verən mühüm amildir.

Həqiqətən də, qardaş və dost ölkələrimizin və xalqlarımızın qarşılıqlı münasibətləri ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarına uyğun olaraq bütün sahələrdə müvəffəqiyyətlə inkişaf edir və genişlənir.

## Prezident İlham Əliyev yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciət edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciət edib. Müəllimləri, tələbələri və şagirdləri yeni dərs ilinin başlanması münasibətilə təbrik edən dövlət başçısı bildirib ki, dünyada və ölkəmizdə geniş yayılmış koronavirus pandemiyası ilə əlaqədar tədris prosesi yeni formatda təşkil ediləcəkdir. Müraciətində pandemiya ilə əlaqədar görülən işlərə toxunan Prezident İlham Əliyev ölkə səviyyəsində həyata keçirilən sosail layihələrdən və məktəb tikintilərindən də söz açıb. Ölkə başçısı vurğulayıb ki, son illərdə Azərbaycanda nəinki təhsilin maddi-texniki bazası möhkəmlənib və bu gün bizim bütün ali məktəblərimiz təmirli binalarda yerləşib, eyni zamanda, təhsilin keyfiyyəti artıb.*

Prezident qeyd edib ki, bu gün dünya üçün yeni texnologiyaları təqdim edən, icad edən ölkələr inkişaf etmiş ölkələrdir və bu ölkələrin bir çoxunda təbii resurslar yoxdur. Ona görə, hər bir ölkənin inkişafı onun təbii resursları ilə ölçülmür və gələcəkdə bu, özünü daha da qabarıq şəkildə büruzə verəcək. "Odur ki, təhsilə qoyulan vəsait hər bir ölkənin gələcəyinə, müstəqilliyinə, təhlükəsizliyinə qoyulan vəsaitdir. Təsadüfi deyil ki, Azərbaycanda büdcə xərcləri arasında təhsil sahəsinə ayrılan xərclər ikinci yerdədir. Əgər biz müharibə şəraitində olmasaydıq, birinci yerdə olardı. Çünki hazırda ən böyük xərclərimiz müdafiə sahəsi ilə bağlıdır. Bu da təbiidir. Yəni, bu, özlüyündə bir göstəricidir, bizim siyasətimizin təzahürüdür, bizim niyyətimizi əks etdirir. Mən şadam ki, bu gün bizim gənclərimiz biliklərə çox meyillidirlər. Gənclərimiz bilikli, savadlı olmalıdırlar ki, gələcəkdə ölkəmizi idarə etsinlər. Bizim gələcəyimiz bu gün məktəblərdə, ali məktəblərdə oxuyan uşaqların, şagirdlərin, tələbələrin əlində olacaqdır. Onların bilikləri, savadı, əlbəttə ki, bizim ölkəmizin gələcəyini şərtləndirəcək. Eyni zamanda, onu da xüsusi qeyd etməliyəm ki, bizim gənclərimiz, uşaqlarımız vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər - ənənəvi Azərbaycan dəyərləri əsasında tərbiyə almalıdırlar. Burada, əlbəttə ki, ailələrin rolu müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda, bütün məktəblərdə müəllimlər şagirdləri milli ruhda, ənənəvi dəyərlər ruhunda tərbiyə etməlidirlər".

"Biz uşaqlarımızı, yeniyetmələrimizi, gənclərimizi xalqımıza, milli adət-ənənələrimizə zidd olan, dırnaqarası dəyərlərdən qorumalıyıq", - deyə Prezident İlham Əliyev müraciətdə bildirib. - Bizim uşaqlarımız Vətənə bağlı olmalıdır, xalqa bağlı olmalıdır, müstəqilliyi hər şeydən üstün tutmalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır, əsrlər boyu qoruduğumuz milli adət-ənənələrimizi qorumalı və onları müdafiə etməlidirlər. Belə olan halda Azərbaycan bundan sonra da müstəqillik və inkişaf yolu ilə gedəcək.

Müraciətin sonunda Prezident İlham Əliyev əminliyini bildirib ki, bu gün Azərbaycanda yetişən gənclər yüksək meyarlara cavab verir. "Əminəm ki, bu müsbət meyillər davam edəcək və bizim uşaqlarımız, gənclərimiz bilik, savad əldə edərək gələcəkdə Vətənə dəyərli vətəndaşlar kimi xidmət edəcəklər və ümumi inkişafımıza öz töhfələrini verəcəklər".

**AZƏRTAC-ın materialları əsasında**

# Cəbhəboyu zonada hərbi hissələr ziyarət olunub



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev ön xətdə yerləşən bir sıra hərbi hissələrdə olublar.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyulub və ehtiram ifadə edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, düşmənlə üzbəüz yüksək dağlıq ərazidə döyüş növbətçiliyi aparan şəxsi heyətin xidməti ilə maraqlanan H.Hacıyev komanda-müşahidə məntəqəsindən düşmən mövqelərini müşahidə edib.

Sonra Horadiz şəhərində yerləşən Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib.



Ön xətdə olan qonaqlar döyüş mövqelərində xidmət edən hərbi qulluqçularla görüşüb, onların xidmət şəraiti ilə maraqlanıb. Görüş zamanı Ali Baş Komandanın salamlarını şəxsi heyətə çatdıran H.Hacıyev Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi və hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı cənab Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrası istiqamətində fəaliyyətlərin davam etməsindən danışaraq bu məsələlərin ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğunu da xüsusi vurğulayıb.

Sonra ön xətdə döyüş növbəsi çəkən hərbi qulluqçularla birgə nahar edilib və çay süfrəsi arxasında söhbət aparılıb.

Cəbhəboyu kəndlərdən birində yerli sakinlərlə görüşən H.Hacıyev ölkə başçısının salamlarını onlara çatdırıb və əhalinin qayğıları ilə maraqlanıb. Yaradılan şəraitdən məmnunluqlarını ifadə edən kənd sakinləri onların minnətdarlığının ölkə rəhbərliyinə çatdırılmasını xahiş ediblər.

# "Türkiyə-Azərbaycan dostluğu əbədidir"

Xəbər verildiyi kimi, sentyabrın 12-də Milli Məclisin sədri Sahibə Qafarova İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş imkanına görə Türkiyə dövlətinin başçısına təşəkkür edən Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırdı.

Milli Məclisin sədri bildirdi ki, Azərbaycan və Türkiyə bütün taleyüklü məsələlərdə bir-birini dəstəkləyir və bir-birinə arxalanırlar. O dedi: "Ermənistanın iyulun 12-də Tovuz rayonu istiqamətində törətdiyi təxribatla bağlı şəxsən Sizin, Xarici İşlər naziri cənab Mövlud Çavuşoğlunun, Milli Müdafiə naziri cənab Hulusi Akarın bəyanatları Azərbaycan xalqı tərəfindən çox böyük təqdirlə qarşılandı. Biz qardaş Türkiyənin dəstəyini hər zaman hiss etmişik və bu dəstəyin birmənalı şəkildə ifadə olunmasına görə Sizə və Türkiyə hökumətinin üzvlərinə dərindən təşəkkür edirik".

Sahibə Qafarova qeyd etdi ki, bölgədə baş verən hadisələrin Türkiyə üçün doğurduğu təhdidlər ciddidir, biz bunu görürük. "Bununla belə, Türkiyə dövlətinin, ən əsası isə Zatialinizin bu təhdidlərə qarşı qətiyyətli mövqeyiniz Azərbaycan ictimaiyyəti tərəfindən də təqdir olunur. Suriya, İraq, Liviya, Qaradəniz, Aralıq dənizi və Egey dənizində vermiş olduğunuz mücadilə türk xalqının haqlı maraqlarını qorumaq üçün verilən milli mücadilədir. Biz bunun fərqindəyik. Bir neçə gün əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edərkən də dediyi kimi, biz Azərbaycan olaraq bu haqlı mübarizəsində qardaş Türkiyənin yanındayıq və nə olursa-olsun qardaş Türkiyə Cümhuriyyətini dəstəkləyəcəyik. Çünki Türkiyə, sadəcə, bizim strateji tərəfdaşımız deyil, qardaş dövlətimizdir. Azərbaycan və Türkiyə liderləri olaraq cənab İlham Əliyevlə Sizin aranızda mövcud olan səmimi dostluq və qardaşlıq ölkələrimiz arasında da olan münasibətlərə və dəstəyə əlavə təkan verir", - deyə Spiker əlavə etdi.

Milli Məclisin sədri Qara dənizdə kəşf edilən təbii qaz yatağı ilə bağlı Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etdi və bunun qardaş ölkənin enerji ehtiyaclarının təmin olunmasında mühüm rolunu vurğuladı.

Öz növbəsində, Prezident Rəcəb Tayyib Ərdoğan yeni seçilmiş parlamentə uğurlar arzuladı. Türkiyə dövlətinin başçısı onun salamlarını və ən xoş arzularını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş etdi.

Prezident bildirdi ki, Türkiyə və Azərbaycan iki qardaş ölkələrdir. "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Ölkələrimiz beynəlxalq platformalarda daim eyni mövqedən çıxış edir, taleyüklü məsələlərdə bir-birini dəstəkləyirlər. Bu günlərdə Prezident İlham Əliyevin Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən söylədiyi sözlər buna bariz nümunədir. Buna görə başda Prezident İlham Əliyev olmaqla bütün qardaş Azərbaycan xalqına bir daha təşəkkürümüzü bildiririk", - deyə dövlət başçısı qeyd etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və bundan sonra da hər zaman belə olacağını diqqətə çatdırdı.

# Hikmət Hacıyev: Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni məskunlaşma müharibə cinayətidir



Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasəti aparan Ermənistan son günlər xüsusilə Livandan olan ermənilərin bu torpaqlara köçürülməsi siyasətini həyata keçirir. Dünən sosial şəbəkələrdə Livandan olan ailənin Azərbaycan xalqı üçün böyük tarixi və mənəvi əhəmiyyətə malik Şuşa şəhərində yerləşdirilməsi barədə məlumatlar yayılıb.

Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, Livana humanitar yardım göstərilməsi ilə məşğul olarkən Ermənistan bu faciədən, insanların iztirablarından özünün çirkin məqsədləri naminə sui-istifadə edir. Bununla da Ermənistan onun üçün heç bir mənəvi dəyərlərin olmadığını nümayiş etdirir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib: "Xüsusilə vurğulamaq istərdim ki, işğal olunmuş ərazilərimizdə məskunlaşdırılmış əhali faktiki olaraq Ermənistanın məsuliyyətsiz, avantürist siyasətinin qurbanına çevrilir. Hamı bilməlidir ki, Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni məskunlaşdırma siyasətinin heç bir hüquqi qüvvəsi yoxdur və Azərbaycan onun nəticələrini tamamilə rədd edir.

Ermənistan Suriya və Livandan işğal olunmuş ərazilərə köçürülmüş insanları silahlı muzdlular kimi də istifadə edir".

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan qeyri-qanuni məskunlaşdırma siyasəti həyata keçirməklə işğal etdiyi Azərbaycan ərazilərində demoqrafik vəziyyəti dəyişməyə çalışır. Qanunsuz məskunlaşdırma siyasəti beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Müharibə dövründə mülki əhalinin qorunmasına dair 4-cü Cenevrə Konvensiyasına əsasən, işğalçı dövlət öz mülki əhalisini işğal etdiyi əraziyə köçürməməlidir.

1946-cı ildə Əsas Hərbi Cinayətkarların məhkəmə işində Nürnberq Beynəlxalq Hərbi Tribunalı müttəhimlərin ikisini işğal olunmuş ərazilərin etnik tərkibinin dəyişdirilməsinə görə təqsirli olduğu barədə qərar vermişdi.

Beynəlxalq hüquqa əsasən, işğalçı dövlət tərəfindən işğal olunmuş ərazilərdə məskunlaşma siyasətinin aparılması müharibə cinayəti kimi tövsif edilməlidir. Bu baxımdan Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni məskunlaşma müharibə cinayətidir.

İstehzalı olsa da, Ermənistanın özünün qanunvericiliyinə görə bu əməllər cinayət hesab olunur. Belə ki, Ermənistanın Cinayət Məcəlləsinin 390-cı maddəsində işğalçı dövlətin işğal olunmuş ərazilərdə əhalini çıxararaq öz əhalisini məskunlaşdırması beynəlxalq humanitar hüququn ciddi pozuntusu sayılır və 8-12 il cəza nəzərdə tutulur.

Bu ilin iyulunda iki ölkənin dövlət sərhədinin Tovuz istiqamətində Ermənistanın törətdiyi təcavüz aktı, təmas xəttindəki diversiya-sabotaj əməliyyatı cəhdi Ermənistanın növbəti təxribat və hərbi avantürizmə hazırlaşmasından xəbər verir.

Bundan əlavə, son günlər Ermənistan işğal edilmiş ərazilərimizdə yaratdığı qondarma rejimin dili ilə Azərbaycanın digər ərazilərini də işğal etmək niyyətini bir daha açıq şəkildə səsləndirməyə başlayıb və Gəncə şəhərini raket atəşinə tutmaqla hədələyib.

Ermənistanın baş nazirinin, müdafiə nazirinin təxribatçı bəyanatları və hərəkətləri, eləcə də bu qəbildən olan digər addımlar bir daha sübut edir ki, tamamilə həyasızlaşmış Ermənistan rəhbərliyinin məqsədi danışıqlar prosesini tamamilə məhv etmək və işğal olunmuş Azərbaycan ərazilərinin ilhaqına nail olmaqdan ibarətdir.

Hikmət Hacıyev vurğulayıb ki, cəbhədə təxribatların törədilməsinə və vəziyyətin kəskinləşməsinə görə bütün məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsində irəliləyişə nail olmaq üçün Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.

*Ön xətdən reportaj*

# "Ali Baş Komandanın döyüş əmrinə hazırıq"



Səngər həyatı... Torpaqlarımızın bir qisminin işğal edildiyi bir dövrdə hər bir azərbaycanlı səngərlə yaxından tanışdır. Yetkinlik yaşına çatdıqdan sonra hərbi xidmətə gedən gənclərin çoxunun həyatının müəyyən bir dövrü səngərdə keçir. Əgər hərbi xidmət yeniyetməni kişi kimi formalaşdırırsa, səngər əsl döyüşçü, layiqli vətəndaş və xalqının taleyini öz mənafeyindən üstün tutan qəhrəman kimi yetişdirir. Tariximizin səhifələri belə oğullarımızın adları ilə doludur. Onlardan Mübariz, Raquf, Samid, Polad... kimiləri Azərbaycan oğlunun Vətəni üçün nələrə qadir olduğunu bütün dünyaya bir daha xatırlatdı. İndi ordu sıralarında xidmət edənlər də onların qəhrəmanlıqlarını öz şərəfli yollarında bir mayak bilirlər. Hər biri müqəddəs vəzifələrini yerinə yetirir, ölkə rəhbərliyindən yalnız bir əmri - döyüş əmrini səbirsizliklə gözləyir.

Vətənin keşiyində dayanan oğullarımızdan bir neçəsini xalqımıza tanıtmaq üçün düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsindəyik. Vətənin müdafiəçilərinin döyüş və mənəvi-psixoloji vəziyyətini öyrənirik. Hərbi hissənin qərargahında kapitan Pərviz Qafarovla görüşürük. Zabit komandanlığa gəlişimizin məqsədini bildirdikdən sonra onunla birgə ön xətdə yerləşən bölmələrdən birinə yollanırıq.

Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətindən danışan zabit Pərviz Qafarov bildirir ki, bölmədə xidmət edən hərbi qulluqçuların döyüş ruhu yüksək səviyyədədir. "Bu gün Azərbaycanın güclü və qüdrətli ordusu var. Milli ordumuzun şəxsi heyətinin döyüş hazırlığına, döyüş bacarığına



heç bir şübhə ola bilməz. Yaxın tarixə nəzər salsaq görərik ki, əsgərlərimizin döyüş ruhu olduqca yüksək səviyyədədir. Əgər belə olmasaydı, Aprel döyüşləri və Günnüt zəfəri zamanı Azərbaycan əsgəri döyüş meydanından qalib ayrılmazdı. Qeyd edim ki, şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə olması təkcə keçirilən məşğələ və təlimlərdən asılı deyil. Onların mənəvi-psixoloji vəziyyətinin və döyüş ruhunun yüksək səviyyədə olmasının bu prosesdə müstəsna rolu vardır. Bəzən sual yaranır: Nədir vətənpərvərlik hissi? Vətənpərvərlik - Vətənini sevmək və Vətən üçün hər cür fədakarlıq etmək deməkdir. Bu hiss insanda anadangəlmə olsa da, onu tərbiyə yolu ilə daha da möhkəmləndirmək, artırmaq mümkündür. Şəxsi heyət arasında vətənpərvərlik hissini aşılamaq məqsədilə hərbi hissədə mütəmadi olaraq kütləvi tərbiyəvi tədbirlər keçiririk. Bu gün hər bir Azərbaycan əsgəri torpaqlarımız uğrunda canından keçməyə hazırdır. Qazanılmış uğurlarla kifayətlənməməliyik. Çünki bizi gələcəkdə Böyük Qələbə gözləyir".

Bölmənin dayaq məntəqəsində bizi qarşılayan baş leytenant Bəbir Həsənli ilə birlikdə əsgər yataqxanasına, yeməkxanasına, bölmənin ərazisində yerləşən idman şəhərciyinə baş çəkirik. Öyrənirik ki, burada əsgərlərimiz döyüş növbəsi ilə yanaşı, bölmənin səngərində mühəndis və təkmilləşdirmə işləri də aparırlar. Ancaq şəxsi heyətin asudə vaxtı da daim diqqət mərkəzində saxlanılır. Asudə vaxtda hərbi qulluqçular müxtəlif stolüstü oyunlar oynayır, voleybol, futbol və digər yarışlar təşkil edirlər. Baş leytenant Bəbir Həsənli deyir: "Vətənimizin hər qarış torpağı müqəddəsdir. Ona görə düşmən bilsin ki, Azərbaycan xalqı və onun ordusu hər qarış torpağı uğrunda canını və qanını fəda etməyə hazırdır. Bilsinlər ki, onların qarşısında mərd, cəsur və igid Azərbaycan əsgəri dayanıb. Bu gün hamımız Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik. O zaman düşmən xalqımızın qəzəbini üzərində hiss edəcək".

Zabitlə birgə döyüş mövqeyinə çatırıq. Leytenant Talıb Talıbov gün ərzində döyüş mövqeyində heç bir hadisənin baş vermədiyini deyir. Öyrənirik ki, zabit 2013-2016-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2016-2020-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Talıbın zabit olmasında atası Vidadi kişinin böyük əməyi olub. O, atasının Qarabağ döyüşlərinin iştirakçısı olduğunu deyir. "Atam Qarabağ döyüşləri zamanı Ağdam istiqamətində gedən döyüşlərdə yaralanıb. O, həmişə döyüşdən, döyüş yoldaşlarından danışardı. Mənim də onun yolunu davam etdirməyimi istəyirdi. Onun arzusu mənim arzuma çevrildi. İndi şanlı ordumuzun zabiti olmağımla fəxr edirəm".

- Müstəqilliyimizin ilk illərində zəngin sərvətlərə malik olan yurdumuz erməni qəsbkarları tərəfindən işğala uğradı, - deyə gənc zabit söhbətə başlayır. - Minlərcə dinc sakinimiz doğma el-obasından didərgin düşdü, yüzlərlə qəhrəmanımız düşmən hücumlarının qarşısını alarkən şəhid oldu. Ancaq bu torpaqlar uğrunda qanı tökülən hər bir şəxsin, şəhid olan hər bir qəhrəmanımızın qisası alınacaqdır. Mübariz, Çingiz, İlqar, Polad... kimi oğullarımız ordu sıralarında çoxdur. Onlar da qəhrəmanlarımız kimi cəsur və mərd olduqlarını gələcək döyüşlərdə göstərməyə hər an hazırdırlar. Biz komandirlər də təhsil müddətində peşəkar müəllimlər tərəfindən öyrədilən hərbi sirləri əsgərlərimizə öyrədirik. Onların döyüş, fiziki, mənəvi-psixoloji, atəş hazırlıqlarını hər zaman yüksək səviyyədə saxlamaqları üçün var qüvvəmizlə çalışırıq. Beləliklə, Azərbaycan Ordusunun gücünə heç bir şübhə ola bilməz. Onun nəticəsidir ki, 2016-cı ilin Aprel döyüşlərində düşmən hücumlarının qarşısını alaraq qısa bir vaxt ərzində torpaqlarımızın bir qismini işğaldan azad etdik. Ali Baş Komandanımızın döyüş əmri ilə qalan torpaqlarımızı da azad edəcəyik.

Leytenant Talıb Talıbovun fikirlərini öyrəndikdən sonra şəxsi heyətə yaxınlaşıb, onlarla həmsöhbət oluruq. Əsgər Taleh İsmayılov ön xətt bölmələrinin birində xidmət etdiyindən qürur duyduğunu bildirir: "Hərbi xidmət hər bir azərbaycanlının qarşısında duran müqəddəs vəzifədir. Kütləvi informasiya vasitələrində hərbiyə aid olan verilişləri böyük maraqla izləyirdim. Düşmənlə təmas xəttində dayanan oğullarımızı görəndə ürəyim dağa dönürdü. Bir zaman mən də onların sıralarında olacağam deyirdim. Hərbi formanı geyinib, Vətənimizin keşiyində dayanmaq hər kəsə nəsib olmur. Çox sevinirəm ki, bu müqəddəs vəzifəni yerinə yetirmək mənim də üzərimə düşüb. Əsgəri xidmətin ilk günündən burada yaradılan şərait göz oxşayırdı, bölmədə olan nizam-intizam ordumuzun gücündən xəbər verirdi. Gənc əsgər olduğum gündən ön xətdə xidmət etmək arzum idi. Yolumuzu həsrətlə gözləyən torpaqlarımıza daha yaxın olmaq, düşmənin bütün fəaliyyətlərini daim nəzarətdə saxlamaq, onların hiyləgər hücumlarının qarşısını almaq istəyirdim. Nəhayət, istəyimə nail oldum. Ən böyük arzum Ali Baş Komandanın döyüş əmri ilə işğalda olan dədə-baba yurdlarımızı mənfur ermənilərdən azad edənlərin sırasında olmaqdır".



- Bu torpaqlar bizlərə dədə-babalarımızdan qalan əmanətdir, - deyə əsgər Tural Şirinov söhbətə qoşulur. - Evdə, məktəbdə böyüklərdən öyrənmişik ki, əmanəti nəyin bahasına olursa-olsun, qorumalısan. Bu torpaqlar da bizə əmanətdir. Onu qorumaq bu gün bizim üzərimizə düşür. Necə ki, Vətənimizi qorumaq üçün cəsur, mərd, igid oğul və qızlarımız bir an belə tərəddüd etmədən canlarından keçiblər. Onların keçdiyi döyüş yolu, göstərdikləri qəhrəmanlıqlar Azərbaycan əsgəri üçün bariz nümunədir. Düzdür, ön xətdə xidmət etmək çətindir. Ancaq düşünürəm ki, ellərimizdə, obalarımızda, evlərimizdə yanan işıqlar mən və mənim kimi əsgər yoldaşlarımın sayəsində yanır. Hər dəfə döyüş növbətçisi olanda işğal edilmiş torpaqlarımıza kənardan baxmaq, müşahidə aparmaq mənə çox pis təsir edir. Bu gün hər bir azərbaycanlının yalnız və yalnız bir məqsədi var - ermənilərdən qisasımızı almaq, düşməni Vətənimizin gözəl guşələrindən qovub çıxarmaq. Əlbəttə, yaxın vaxtlarda kənardan baxdığımız torpaqlara ayaq basacağıq, Azərbaycanın üçrəngli bayrağını dədə-baba yurdlarımızda dalğalandıracağıq.

Düşmənlə təmas xəttində yerləşən bölmənin şəxsi heyəti ilə söhbətdən bir daha əmin oluruq ki, ordumuz regionun ən güclü ordusudur. Bütün bunlar isə Ali Baş Komandan İlham Əliyevin iradəsi və qayğısı sayəsində formalaşıb. Bu gün güclü maddi-texniki baza və müasir silah-sursatla təmin olunan ordumuz ölkəmizi istənilən təcavüzdən qorumağa, işğalda olan torpaqlarımızı azad etməyə qadirdir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

Döyüş hazırlığı

# “Azərbaycan torpaqları işğalda qalmayacaq!”

*Döyüş hazırlığının yüksək səviyyədə saxlanması daim Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir. İstər düşmənə qarşı mübarizədə, istər torpaqlarımızın təhlükəsizliyinin təmin edilməsində, istərsə də birbaşa döyüş meydanında şəxsi heyətin müsbət nəticələr əldə etməsi döyüş hazırlığından bilavasitə asılıdır. Ordunun əldə etdiyi uğurların arxasında mütəmadi keçirilən döyüş hazırlığı dərsləri, təlimlər və səhra çıxışları dayanır. Bütün bunlar mürəkkəb əməliyyat şəraitində zabit və əsgərlərin təcrübi bacarığının və mənəvi-psixoloji dözümlülüyünün formalaşmasına yardımçı olur.*



Təlim meydançasında atəş hazırlığı dərsini izlədikdən sonra bir daha əmin olduq ki, "N" hərbi hissəsinin rəhbərliyi də tabeçiliyində olan şəxsi heyətin bilik, bacarıq və vərdişlərə yiyələnməsinə xüsusi diqqət ayırır. Zabit Rəşad Əliyev söhbət zamanı bildirdi ki, döyüş meydanında hazırlıqlı hərbi qulluqçu daha çox əhəmiyyət daşıyır. Əsgərlərin istər fiziki, istərsə də mənəvi cəhətdən inkişaf etməsində, hərbi qulluqçu kimi Vətənin müdafiəsinə hazırlanmasında təlimlər, keçirilən məşqlər, döyüş hazırlığı dərsləri mühüm rol oynayır.

Zabit Rəşad Əliyev ilə birlikdə dərs prosesini izlədik. Baş leytenant Mədət Səmədov şəxsi heyətə keçirilən dərsin əhəmiyyətini başa salaraq izah edirdi ki, hücum taktiki fəaliyyətin əsas növlərindən biridir. “O düşməni darmadağın etmək, təyin olunmuş obyektləri ələ keçirmək, sonrakı fəaliyyətlərə imkan yaratmaq məqsədilə aparılır. Qarşımızda şərti düşmən mövqeləri dayanır. Şəxsi heyətin qarşısında duran əsas tapşırıq hücum edərək həmin mövqeləri ələ keçirməkdir.”



"Qarşımızda dayanan mövqeləri şərti deyil, real düşmən mövqeləri hesab edərək hücuma keçirik", - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ruslan Rüstəmov söhbətə qoşuldu. - Hər bir Azərbaycan əsgəri Qarabağı şanlı tarixə malik olan Vətənimizin canımızdan ayrılmış bir parçası kimi anlamalıdır. Ona görə də işğal olunan torpaqlarımıza qovuşmaq üçün canımız, qanımız bahasına olsa belə çalışmalıyıq. Ağlar qalan anaların, bacıların, yandırılan körpələrin, dayım İlqar Musayevin simasında bütün şəhidlərimizin qisasını almaq yolunda tər tökməyi bacaran Azərbaycan əsgəri kimi formalaşmaq mənim boynuma düşən mənəvi borcdur. Bizim hər birimizin ən böyük arzusu qələbədi, işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın geri qaytarılması, azad olunmasıdır. İnanırıq ki, hazırlıqlı Azərbaycan əsgəri həmin şad günü həsrətlə gözləyən xalqımıza qələbə sevinci bəxş edəcək, Qarabağ həsrətinə son qoyacaq.

Baş çavuş Murad Məmmədov hesab edir ki, komandiri olduğu heyətin döyüş atışlı təlimdə fərqlənməsinin əsasında təcrübə və vətənpərvərlik duyğusu dayanır. “Bundan başqa, təlimdə uğur qazanmağın əsas şərtlərindən biri komandir və əsgərlərin bir-birini tamamlamasıdı. Başlıcası budur ki, əsgərlərin rəğbətini qazanan, onların ehtiyacını duyan, onlara valideyn qayğısı göstərən, şəxsiyyətinə hörmət edən, hərbi təcrübəsini əsgərlərə aşılamağı bacaran komandir tabeçiliyində olanları qələbəyə kökləyə bilər.”

"Bu gün Azərbaycan əsgərinin arzusu xalqımıza qələbə bəxş etməkdi", - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elçin Tağıyev söhbətə qoşuldu. - Unutmuruq ki, düşmən hələ meydandadı... Unutmuruq ki, ermənilər hansı faciələri törədiblər... Ancaq düşmən də unutmamalıdır ki, Azərbaycan Ordusu istənilən hücumun qarşısını almağa, düşmənə layiqli cavab verməyə qadir ordudu. Aprel və Günnüt zəfərləri, Tovuz döyüşləri sübut etdi ki, ordumuz nəyə qadirdir.

Əsgər Elnur Qasımov qeyd etdi ki, bizim vəzifəmiz Vətənimizə keşik çəkmək və istənilən hərbi tapşırığı layiqincə yerinə yetirməkdir. "Həmin vəzifənin məsuliyyətli olduğunu yaxşı dərk edirik. Arxamızda güclü dövlətin olduğunu hiss edəndə daha mübariz olur, torpaqlarımızın işğaldan azad ediləcəyinə inamımız artır. Bütün əsgərlər arzulayırlar ki, torpaqlarımızın düşməndən azad edilməsində payları olsun."

Əsgər Nadir Mürsəloğlu isə vurğuladı ki, Vətənin başlandığı yer etibarlı, ayıq-sayıqlıqla qorunmalıdır. "Bu yolda istənilən məhrumiyyətlərə sinə gərmək vətəndaşlıq borcumuzdu. Yaxşı bilirik ki, ordumuzun döyüş qabiliyyəti biz əsgərlərin hərtərəfli hərbi hazırlığından keçir. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün maddi-texniki bazaya malik olan ordunun olması və şəxsi heyətin hərbi təcrübəsinin artması əsas şərtdir. Bizim bundan başqa yolumuz yoxdur.”

"Təəssüf ki, çoxdandı Vətənimizə, əzəli yurdlarımıza - Xankəndiyə, Şuşaya, Laçına, Kəlbəcərə, Xocalıya gedibgələ bilmirik. Vüqarımız, qürurumuz, baş tacımız, qeyrət qalamız olan o torpaqlar bizi səbirsizliklə gözləyir. Biz bu torpaqları geri qaytara bilməsək, ata-babalarımızın ruhu bizi bağışlamaz. Ona görə də son damla qanımıza qədər döyüşməli və torpaqlarımızı azad etməliyik. Xalqımızın bizə inamı, güvəni sonsuzdur və borcumuz bu inamı və güvəni doğrultmaqdır. Qarabağı azad etmək biz əsgərlərin boynuna düşür. İnanıram ki, Vətənimizin müdafiəsi naminə qələbəyə qədər döyüşəcək, işğalda olan torpaqlarımızı ermənilərdən azad edəcəyik", - deyə əsgər Rüzgar Əmiraslanov qeyd etdi.

Əsgər Namiq Quliyev isə bildirdi ki, ön xətdə olan bölmələrimiz həmişəki kimi döyüş növbəsi aparır. “Arxada yerləşən bölmələrimiz isə döyüş dərslərinə cəlb olunublar, ixtisas bacarıqlarını artırırlar. Yəni, bizim üçün vərdiş etdiyimiz adi günlərdən biridir. Ancaq adi dediyimiz bu dərsin əhəmiyyəti böyükdür. Çünki hərbi xidmət edən əsgər həm təlim və məşq prosesindən keçməli, həm də ideoloji cəhətdən hazır və bilikli olmalıdır. Yüksək vərdişlərin təməli isə məşq və təlimlərdə qoyulur.”

Əsgər Xəyal Süleymanov söhbətə qoşularaq dedi ki, məşq prosesində əsas iş döyüş silahları və texnikalarını mükəmməl öyrənməkdir. "Başa düşürük ki, müharibə şəraitindəyik. Hələ ki, müharibə başa çatmayıb, bu müharibə torpaqlarımız işğaldan azad ediləndən sonra başa çatacaq. Ona görə də döyüş zamanı düşmənin yerləşdiyi ərazinin kəşfiyyatını aparmaq, silah və texnikaların taktiki və texniki xüsusiyyətlərini dərindən mənimsəmək, əsgərlərimizin qələbəsinə vəsilə olmaq, torpağını qorumaq və azad etmək Azərbaycan əsgərinin ən böyük vəzifə borcudur. Bu baxımdan bugünkü dərs prosesini qələbəyə doğru atılan bir addım hesab edir və bu işdə kiçik də olsa zəhmətim olduğuna görə özümü xoşbəxt sayıram.”



Əsgər Xəyyam Şamayev isə qeyd etdi ki, hər birimizin qəlbində müqəddəs bir hiss - Vətənə olan məhəbbət hissi yaşayır. “Sərhəddən başlayan Vətən sevgisi hər birimizin qanından, canından, genindən irəli gəlir. Ona görə də Vətənimizin hər qarışı bizim üçün əzizdir.”

Dərs prosesi zamanı bir hiss məni rahat buraxmır - axı göz oxşadıqca nəzər yetirdiyim torpaqlar da xalqımıza məxsusdur. İndi isə həmin torpaqlara uzaqdan baxmağa məhkumuq. Ancaq onu da deyim ki, düşmən torpaqlarımızı işğal etsə də, xalqın güvəndiyi güclü Azərbaycan Ordusu var və ordumuzun sayəsində Azərbaycan torpaqları işğalda qalmayacaq!

**Mayor Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# İnam qələbəyə çağırışdır

Deyirlər hərbçilər Vətən sevgisi ilə dolu olurlar. Onlar nəinki fikirləri ilə, düşüncələri ilə, eləcə də doğulduğu torpağa candan bağlı olmaları ilə fərqlənirlər. Tarixdə döyüş qabiliyyəti, bacarığı, istedadı ilə ad qoyan, döyüşlərdə şücaət göstərən, bundan sonra yüz illər keçsə də, tarixin səhifələrində, insanların yaddaşında qalacaq bir çox qəhrəmanlar var. Doğma torpağını candan sevən, sözün əsl mənasında, Vətən sevgisi ilə dolu olan baş leytenant Camal Əzizbəyli belə insanlardandır. Zabitlə söhbətimiz qısa olsa da, səmimi və xoş idi.





Həmsöhbətim Camal soyuq bir qış gecəsində sadə bir ailədə dünyaya göz açıb. Uşaq yaşlarından formaya, hərbiyə maraq göstərib. Bu marağı həyat yoluna çevirən isə oxuduğu məktəbdə fizika müəllimi Zaur Mustafayev olub. Zaur müəllimin şagirdlərinə mütəmadi döyüşlərdən, Vətəndən danışması Camal kimi çoxlarının ruhuna, mənəviyyatına təsir edir.

“Heç unutmaram 26 fevral 2007-ci il. İlk dərsimiz fizikaydı. Zaur müəllim gülərüz, xoşsöhbət adam idi. Amma həmin gün üzündə kədər və qəzəbin qarışığı bir ifadə vardı. Dərs başlar-başlamaz Xocalı soyqırımından, ermənilərin vəhşiliklərindən söz açdı. "Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq, mühasirədəki Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeridib, onlara misli görünməmiş qəddarlıqla divan tutub, şəhəri yerlə-yeksan edib. Yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi naməlumdur". Sonra Xocalı faciəsini özündə əks etdirən şəkillərə və videolara baxdıq. "Qisas qiyamətə qalmayacaq, sizlər Qarabağımızı azad edəcək, Xocalıda vəhşicəsinə qətlə yetirilən körpələrimizin, ana-bacılarımızın qisasını alacaqsız", - Zaur müəllim dedi. Müəllimin sözlərindən sonra gözlərimiz dolsa da, ürəyimiz qan ağlayırdı. O gün qərara aldım, hərbçi olacaq, qisas gününü qiyamətə qoymayacağam. Onu da fərəhlə bildirim ki, həyat yoluma çıraq olan müəllimimə hər zaman könüldən minnətdar olacağam. Qədim yunan filosofu və ensiklopediyaçı alim Aristotelin dediyi kimi: "Atam məni bu dünyaya gətirib, amma müəllimim isə mənə bu dünyada həqiqi səadət yolunu tapmaqda yol göstərib", - deyə baş leytenant Camal Əzizbəyli bildirdi.

Gənc zabitimizin sözlərindən sonra ümummilli lider Heydər Əliyevin "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır" fikrini xatırlayıram. Doğrudan da, belədir, Camalı tanıyana qədər adını belə bilmədiyim Zaur müəllimin cəmiyyətin gələcək tərəqqisi üçün öz şagirdlərinə Vətən sevgisini, düşmənə nifrəti aşılaması bu gün Azərbaycan Ordusuna ağıllı, bacarıqlı bir zabit bəxş edib.

Camal söhbət əsnasında əsgərlərindən, onların bilik və bacarığından da söz açdı. “Bu gün sağlam təfəkkürlü, yüksək mənəvi keyfiyyətə malik gənclik yetişir. Bu da cəmiyyətin düzgün formalaşmasından irəli gəlir. Fərqli mühitdə böyüyən, fərqli düşüncəyə, təhsilə malik olan bütün əsgərləri birləşdirən vahid ünsür vətənpərvərlikdir. Hər biri ilə fərdi söhbət aparırkən, məktəbdə, ailədə, cəmiyyətdə onlara düzgün vətənpərvərlik hissləri aşılandığı açıq-aşkar bilinir. Vətənini sevən əsgər məsuliyyətli olur. Məsuliyyət isə nizam-intizamda, döyüş hazırlığında özünü göstərir, - gənc zabit dedi.

Əsgərlərindən xatirənə ömürlük həkk olunan nələri xatırlayırsan sualına gənc komandir cavab olaraq əsgər Sadiq Fətiyevin adını çəkdi.

“Sadiq Cəlilabaddanıydı. Mənəvi keyfiyyətləri, nizam-intizamı, bacarığı hər zaman əsgər yoldaşlarına nümunə idi. Əsgərlərimin heç biri incimәsin məndən, hər biri nizam-intizamlı, bacarıqlı olub. Sadiqi yaddaşıma həkk edən tərxis olunarkən dediyi sözlər idi. "Komandir gedirəm, bu gediş birdə gəlməyəcəm anlamına gəlməsin. Ali Baş Komandan döyüş əmri verəndə sizinlə çiyin-çiyinə, kürək-kürəyə Şuşaya, Qarabağa gedəcəyik. O gün şəhadət qismətimiz olsa cənnətdə, yaşamaq nəsibimiz olsa Qarabağda dalğalanan üçrəngli bayrağımızın altında zəfər marşının sədalarını dinləyərik". Bu sözlər bir əsgərin arzusunun dilinə gətirə bildiyi kiçik bir hissəsiydi. O gün sözləriylə, arzusuyla xatirəmə ömürlük həkk olunan Sadiqin, döyüşlərdən sonra qəhrəman kimi hər kəsin xatirəsinə həkk olunacağına əminəm”, - zabit dedi.

Camalla səmimi söhbətimiz gözəl ovqata, Böyük Qələbəyə inama çevrilir. O inam ki, hər birimizin qəlbində yurdumuza, yurddaşımıza tuşlanan hər bir mərmiyə zirehdir, döyüş meydanında düşməni məhv edəcək silahdır. Əsgər Sadiq Fətiyevin dediyi kimi: “Qəlbizimdəki Vətən sevgisi, ruhumuzdakı inamla, Qarabağda üçrəngli bayrağımızın altında zəfər marşını dinləyərək söhbətləşmək ümidilə...”

**Kapitan**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Qalib əsgərlərimizi analar bağrına basacaq

*Həyata keçirilən böyük islahatlar ordumuzun gücünün daha da yüksəlməsini təmin etdi. İndi ordumuz nəinki cənubi Qafqazda ən güclü ordudur, həm də dünyada ən güclü ordular sırasındadır.*



Silahlanmaya daxil edilən ən müasir silahlar ordunun gücünü, şəxsi heyətin döyüş hazırlığını, yeni hərbi hissələrin istifadəyə verilməsi, Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərliyinin ön xətdə əsgər və zabitlərimizə tövsiyələr verməsi, xidmətdə fərqlənənləri mükafatlandırması şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəldib. İctimaiyyət inanır ki, əsgərlərimiz Ali Baş Komandanın döyüş əmrini qələbə ilə başa çatdıracaqdır...

Azərbaycan əsgərinin döyüş qabiliyyəti, gücü iyul döyüşlərində də bu ordunun qadirliyinin təsdiqi oldu.

Qazanılan qələbələri dünya ictimaiyyəti Azərbaycan Ordusunun döyüş qüdrəti bildi. Xalq ordumuzun döyüş əzminə, qələbə ruhuna daha dönməzliklə inanır.

Oğlum Mərdanın 11 yaşı var. O da ordumuzla qürur duyur. O da hərbçi olmaq niyyətindədir. Varlığımla inanıram ki, nəinki mənim oğlum, hətta çağırış yaşlılarımız da işğaldan azad edəcəyimiz torpaqlarda xidmət edəcəklər.

İyul döyüşlərində əsgərlərimizin döyüş əzmini, qələbə ruhunu xalqımız da gördü, düşmənlər də. Düşmənlər bir daha dərk etdilər ki, Azərbaycan Ordusu güclüdür. Azərbaycan əsgəri döyüşlərə tam hazırdır! Azərbaycan əsgəri bütün şəhid analarının oğludur, bacılarının qardaşıdır. Şəhid qardaşlarının ruhu da döyüşlərdə onunla olacaq!

Döyüşlərdən, Böyük Qələbədən sonra qalib əsgərlərimizi bütün analar bağrına basacaq...

**Kiçik çavuş**
**Arəstə BAXIŞOVA,**
**"N" hərbi hissəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistanın növbəti təxribatı nəticəsində hərbi qulluqçumuz yaralanıb

Sentyabrın 14-də axşam saatlarında Ermənistan tərəfi Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu Hacallı kəndi istiqamətində növbəti dəfə təxribat törədib.

Düşmən tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulması nəticəsində gizir Əliyev Renat Eldar oğlu yaralanıb. Hərbi qulluqçuya dərhal tibbi yardım göstərilib, onun həyatı üçün təhlükə yoxdur.

Bölmələrimizin cavab atəşi ilə düşmən susdurulub, əməliyyat şəraiti ordumuzun nəzarəti altındadır.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***15 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Nerkin Karmirağbur, Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı və Ağdam kəndlərində, Vayk rayonunun Xndzorud kəndində yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yuxarı Buzqov kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Qobustan rayonundakı Türk Şəhidliyi və hərbi hissədə anım mərasimləri keçirilib

*Bakının işğaldan azad edilməsinin 102-ci ildönümü ilə əlaqədar Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Qobustan rayonunun Təklə kəndindəki Türk Şəhidliyində anım mərasimi keçirilib.*



Azərbaycan və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş avtomobil karvanı hərbi hissədən çıxaraq həmin ünvana yollanıb.

Müdafiə Nazirliyi adından Türk Şəhidliyindəki abidə-kompleksinin önünə əklil qoyulub.

Azərbaycanın və Türkiyənin müstəqilliyi və azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi ehtiramla yad edilib. Hər iki ölkənin dövlət himnləri səsləndirilib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Nuru Paşanın rəhbərliyi altında Azərbaycan və Türkiyə əsgərlərindən ibarət Qafqaz İslam Ordusunun erməni-bolşevik işğalçılarına qarşı apardığı qəhrəmanlıq mübarizəsindən, onların şücaət və igidliklərindən ətraflı söhbət açıb.

Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsinin rəis müavini general-mayor Rasim Əliyev tarixin bütün zamanlarında Azərbaycan xalqının Türkiyəyə, Türkiyə xalqının isə Azərbaycana daim arxa və kömək olduqlarını bildirib.

Birinci Dünya müharibəsi illərində Çanaqqala zəfərinin qazanılmasında, eləcə də Qurtuluş savaşında azərbaycanlıların qardaş türk xalqına maddi-mənəvi və canlı qüvvə sarıdan göstərdiyi qardaşlıq köməyindən bəhs edən general-mayor R.Əliyev Türkiyə xalqının və dövlətinin də həmişə Azərbaycana cəsarətli dəstək nümayiş etdirdiyini bir daha vurğulayıb.

Qeyd edilib ki, bu ilin iyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribatlara qarşı ilk etiraz səsini yüksəldən məhz qardaş Türkiyə olmuş və düşmənin iyrənc əməllərini qətiyyətlə pisləmişdir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Yunanıstanın ölkəmizdəki səfirini qəbul edərkən səsləndirdiyi cəsarətli fikirlərin Türkiyə ictimaiyyəti tərəfindən minnətdarlıqla qarşılandığını diqqətə çatdıran general-mayor R.Əliyev bildirib ki, bugün də Azərbaycan və Türkiyə bütün sahələrdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində daha uğurlu siyasət aparır, möhtəşəm layihələr həyata keçirilir.



Tarixi milli-mənəvi dəyərlərə, eyni dilə, eyni dinə malik olan hər iki ölkənin dostluğu və qardaşlığı sarsılmazdır, əbədidir.

Türkiyə Silahlı Qüvvələrinin zabiti Alper Karacaoğlu Azərbaycan uğrunda döyüşlərdə şəhid olan türk əsgərlərinə göstərilən hörmət və ehtirama, onların adlarının əbədiləşdirilməsində və türk şəhidliklərinin əsl ziyarətgaha çevrilməsində xidməti olanlara - Azərbaycan Prezidentinə, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

Təklə kəndinin sakini Gülbala Bayramov hələ sovet dövründə Acıdərədəki türk zabitinin məzarının qadağalara baxmayaraq yerli sakinlər tərəfindən qorunduğunu, daim ziyarət olunduğunu qeyd edib.

Sonra iştirakçılar türk zabitinin məzarını ziyarət edib, qırmızı qərənfillər düzüb və xatirə şəkli çəkdiriblər.

Mərasimdən sonra hərbi hissədə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin iştirakı ilə "Azərbaycan-Türkiyə qardaşlığı əbədidir, sarsılmazdır" devizi altında ədəbi-musiqili tədbir keçirilib.

# Bakı şəhərinin azad edilməsinin 102 illiyi ilə əlaqədar Şəhidlər xiyabanı və Türk Şəhidliyi ziyarət olunub

*Bakı şəhərinin azad edilməsinin 102 illiyi ilə əlaqədar Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, ideoloji və mədəniyyət mərkəzlərində silsilə tədbirlər keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sentyabrın 15-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyevin rəhbərliyi ilə nazirliyin bir qrup hərbi qulluqçusu və Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı səfiri Erkan Özoralın rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edib.

Abidələr qarşısına Müdafiə Nazirliyi və Türkiyənin ölkəmizdəki səfirliyi adından qızılgül çələngi qoyulub, qərənfillər düzülüb və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Tədbirdə dövlətlərimizin əlaqələrinin qədim tarixə, mehriban dostluq münasibətlərinə əsaslandığı və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğu qeyd edilib, ölkələrimiz arasında əməkdaşlığın qardaşlıq münasibətləri üzərində qurulduğu və bu əlaqələrin daim inkişaf etdiyi vurğulanıb.

# Azərbaycan və Türkiyə HHQ-nin aviasiya vasitələri Gəncə şəhəri üzərində birgə uçuşlar keçirib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Bakının azad olunmasının 102-ci ildönümü ilə əlaqədar sentyabrın 15-də Gəncə şəhəri üzərində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri aviasiya vasitələrinin nümunəvi uçuşları keçirilib.

Uçuşlara hər iki ölkənin döyüş təyyarələri və helikopterləri cəlb olunub.

# Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər birləşmə və hissələrə yola salınıb

Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kurslarını başa çatan gənc əsgərlər döyüş təyinatlı birləşmə və hissələrə yola salınıblar.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edənlər məşğələlərdə yenilməz döyüşçü keyfiyyətlərinə yiyələnən gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

General-mayor Teymur Eyyubov şəxsi heyəti təbrik edərək bildirib ki, Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsində hərbi qulluqçuların tapşırıqları peşəkarcasına yerinə yetirməsi kurslarda qazanılanların nəticəsidir. İnanırıq ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz də hər zaman nümunəvi xidmətləri ilə seçiləcəklər.

Çıxışların ardından əsgərlər müxtəlif ixtisaslar üzrə qazandıqları bilik və bacarıqları nümayiş etdiriblər.

Bölmələrin təntənəli keçidi ilə gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.

*Əhmədiyyə Cəbrayılov - 100*

# Ümummilli lider Heydər Əliyev:

# Əhmədiyyə Cəbrayılov qoçaq adam olub, əsl qəhrəmandır, onun xatirəsini mütləq yaşatmaq lazımdır

*Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Müqavimət Hərəkatının ən fəal iştirakçılarından biri Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyi ilə əlaqədar imzaladığı sərəncam xalqımızın, dövlətimizin bir daha qəhrəman övladlarına əbədi ehtiramın təzahürüdür.*





Sərəncamda qəhrəman həmyerlimizin doğma Vətəndən uzaqlarda göstərdiyi şücaət və fədakarlıq nümunələrindən bəhs edilib. Qeyd edilir ki, Əhmədiyyə Cəbrayılov bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində, nasizm üzərində qələbə qazanılmasında böyük xidmətlər göstərib, Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçib. 1941-ci ildə müharibənin başlanması ilə ölkənin müdafiəsi üçün könüllü şəkildə cəbhəyə yollanan Əhmədiyyə Cəbrayılov daha sonralar Fransa Müqavimət Hərəkatında fəal iştirak edib. Onun yüksək bacarıqla həyata keçirdiyi çoxsaylı kəşfiyyat əməliyyatlarındakı misilsiz şücaətləri layiqincə qiymətləndirilib. Fransa dövlətinin orden və medalları ilə təltif edilmiş həmvətənimizin, eyni zamanda, Müqavimət Hərəkatı iştirakçıları sırasında xatirəsi əbədiləşdirilib.

Dövlət başçısının sərəncamının icrası və eyni zamanda, əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun keçdiyi ömür yolu haqqında daha ətraflı məlumatları "Azərbaycan Ordusu" qəzetinin oxucularına çatdırmaq məqsədilə onun doğulub böyüdüyü, müharibədən sonra uzun illər yaşadığı doğma Şəkiyə ezam olunuruq.

Ecazkar təbiəti ilə insanları özünə bağlayan bu şəhər uca dağların qoynunda yerləşir. Şəki tarixən alban hökmdarı sərkərdə Cavanşirin igidlər oylağı, qəhrəmanlar diyarı kimi tanınıb, şöhrətlənib. Vətənpərvərliyi, döyüşkənliyi, qorxmazlığı ilə seçilib bu yurdun övladları. Yadelli işğalçılara qarşı döyüşlərdə amansız olub, torpağını düşməndən qoruyub, yenilməz qalaların müdafiəsində əzmlə dayanıblar. Çanaqqala savaşına qatılan Şəki könüllülərinin qəhrəmanlığı, İkinci Dünya müharibəsinə yollanan minlərlə şəkilinin və ən nəhayət, Qarabağ müharibəsində canından keçən şəhid oğulların varlığı bizə bu diyarın döyüşkənlik, torpaqsevərlik ruhundan xəbər verir. Alman faşistlərinə qarşı amansızlıqla döyüşən qəhrəman ata Əhmədiyyə Cəbrayılovun və erməni faşistlərinin məhv edən qəhrəman oğul Mikayıl Cəbrayılovun vətənpərvərlik ruhu da bu ruhdan rişələnmişdi. Qoşa məzarlıqda uyuyan hər iki qəhrəmanla Azərbaycan xalqı fəxr edir. Şəki camaatı da qəhrəman həmyerliləri ilə qürur duyduqlarını dedilər.



Öyrənirik ki, COVID-19 pandemiyası ilə bağlı yaranan məhdudiyyətləri nəzərə alaraq Şəkidə də kütləvi tədbirlərin təşkilinə icazə verilmir. Lakin bununla belə el qəhrəmanı Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyinin şəhər mədəniyyət və təhsil sistemində pandemiyanın şərtlərinə uyğun olaraq qeyd ediləcəyini və Prezidentin sərəncamı ilə bağlı tədbirlər planının artıq hazırlandığını da öyrənirik.

Şəki şəhər Təhsil Şöbəsinin müdir müavini Elxan Abdullayev əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illiyinin doğma yurdu Şəkidə, doğulduğu Oxud kəndində məktəblərdə şagirdlərin və tələbələrin iştirakı ilə onlayn tədbirlər keçirəcəklərini, qəhrəmanın döyüş yoluna həsr edilən sərgilərin, filmlərin nümayişini təşkil edəcəklərini dedi. Həmsöhbətim vaxtilə onunla birlikdə çalışdığını da xüsusi vurğuladı: "Ölkə Prezidentinin Fransa Müqavimət Hərəkatının fəal iştirakçısı Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyi ilə əlaqədar imzaladığı sərəncam nəinki biz şəkililərin, həmçinin bütün Azərbaycan xalqının ürəyincə oldu. Bir daha qəhrəman həmyerlimizlə qürur duyduq. Azərbaycan xalqı, Azərbaycan dövləti, Prezidentimiz döyüşlərdə igidlik, hünər göstərən Vətən övladlarının xatirəsini əziz tutur, onların adlarını əbədiləşdirir. Bildiyiniz kimi, iki il öncə Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illiyi və keçən ilin dekabrında iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 110 illiyi ilə bağlı dövlət rəhbərinin sərəncamları imzalanıb. Cənab Prezidentin Əhmədiyyə Cəbrayılovla bağlı imzaladığı sərəncamda dövlət başçımız qəhrəmanın fəaliyyətini, onun İkinci Dünya müharibəsində antifaşist hərəkatında fəal iştirakını elə yüksək ifadələrlə qiymətləndirib ki, bu bizim üçün böyük fərəh oldu. Eyni zamanda, sərəncamda onun oğlu Azərbaycanın Milli Qəhrəmanı Mikayıl Cəbrayılovun adının çəkilməsi hər birimizi qürurlandırdı. Çünki tarixdə belə insanlar tək-tək yetişir. Ata-oğul hər ikisi müharibə qəhrəmanı. Müharibə qəhrəmanı olan ailə başçısı övladlarını görün nə qədər vətənpərvərlik ruhunda tərbiyə edib ki, sonda evin oğlu da Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçdi, şəhidlik zirvəsinə ucaldı, qəhrəman oldu. Biz hər zaman şəhər təhsil şöbəsi olaraq təhsil ocaqlarında Əhmədiyyə Cəbrayılovun xatirəsini əziz tuturuq. Bizə bu işdə ən böyük yardımçı onun yadigarı Cavanşir müəllim olur. O, bizə daima yaxından kömək edir. Cavanşir müəllim deməkolar ki, təhsil işçiləri qədər gənclər arasında olur, məktəblərdə vətənpərvərlik tərbiyəsi ilə bağlı söhbətlər aparır. Biz onu bütün vətənpərvərlik mövzusunda keçirilən tədbirlərimizə dəvət edirik. Onu da qeyd edim ki, Cavanşir müəllimin bilavasitə səyi ilə Əhmədiyyə Cəbrayılovun yaşadığı evdə Xatirə muzeyi yaradılıb. Tez-tez şagirdlərimizin bu muzeyə ekskursiyası təşkil olunur. 2018-ci il aprelin 26-da Oxud kəndində Folklor Evində Milli Qəhrəman Mikayıl Cəbrayılovun anım günü ilə əlaqədar böyük bir tədbir keçirdik. Bu tədbirdə qəhrəmanın ailə üzvləri və Fransadan gəlmiş qonaqlar da iştirak edirdilər. Təhsilin prioritet istiqamətlərində belə bir bölüm var: milli-mənəvi dəyərlərə hörmət və vətənpərvərlik tərbiyəsi. Biz bu məsələyə daima diqqət yetiririk. Məktəblərdə nümunəvi siniflərə qəhrəmanlarımızın adı verilir. Belə ki, Mikayıl Cəbrayılovun, Çingiz Mustafayevin, Əlif Hacıyevin, Mübariz İbrahimovun, Elşad Yəhyayevin adına siniflərimiz var. O cümlədən bir sinfə Əhmədiyyə Cəbrayılovun da adı verilib. Əhmədiyyə Cəbrayılovun 100 illiyi ilə bağlı "Xarqo kimdir?", "Biz səninlə fəxr edirik", "Qürur duyduğumuz adam" mövzularında VIII-XI siniflər arasında inşa yazı müsabiqəsi elan etmişik. Bu proses onlayn həyata keçirilib. Müsabiqənin nəticələri isə Əhmədiyyə Cəbrayılovun doğum tarixində 22 sentyabrda elan olunacaq."

Elxan müəllim də Əhmədiyyə Cəbrayılovu yaxından tanıyan bir insan kimi xatirələrini bizimlə bölüşdü. "Bir dəfə Oxud kəndinə getmişdim. İmkan var ikən fikirləşdim ki, hər iki qəhrəmanın məzarını ziyarət edim. Qəlbimdən süzülən fikirlərimi sizə söyləyirəm. Uşaqlıqda barəsində çox eşitdib oxusam da, ağrılı-acılı bir dönəmdə 1990-cı ildə onunla şəxsən tanış olmaq mənə nəsib olmuşdu. Azərbaycan Ali Sovetinə ilk dəfə olaraq alternativ seçkilər keçirilərkən, eyni bir dairə seçki komissiyasının tərkibində bir neçə ay birlikdə çalışmalı olduq. Bəzən yaranan mürəkkəb vəziyyətlərdən çıxmaqda, gərgin anlarda sədr kimi düzgün qərar qəbul etməkdə məsləhətlərinin, qətiyyətli mövqelərinin çox köməyi oldu. İkinci Dünya müharibəsinin odundan-alovundan çıxmış, həyatın hər cür çətinliklərini görmüş əfsanəvi partizan Xarqo bu qədər sadə, həssas, gənclərə qarşı o qədər qayğıkeş bir insan idi ki. Oğlu Mikayılla da həmin o ağır günlərdə tanış olmuşdum. Çox keçmədi ki, o da Qarabağ müharibəsində şəhid oldu. Hər iki qəhrəmanın məzarını ziyarət etməyi biz Şəki camaatı özümüzə mənəvi borc bilirik. Vətəndaşlıq borcu bilirik. Axı vətənpərvərlik mövzusunda keçirilən tədbirlərimizdə onların adlarını tez-tez çəkirik. Məktəblilərə nümunə göstəririk. Qəhrəmanları şəxsən tanımaq və onların müasiri olmaq özü bir böyük şərəfdir. Allah hər ikisinə rəhmət etsin. Onların həyat və döyüş yolu gənclərimiz üçün ən qiymətli örnəkdir."

Elxan Abdullayev Əhmədiyyə Cəbrayılovun Qarabağ müharibəsi başlayanda Ağdamda, Əsgəranda, Sırxavənddə döyüşçülərlə görüşündən, onlara yardımlar aparmasından, orta məktəb illərində yazıçı Zaman Qarayevin "Xarqo" romanını dəfələrlə oxumasından danışdı.

Bəli, Əhmədiyyə, Mikayıl Cəbrayılovlar kimi qəhrəmanlar unudulmur. İllər, əsrlər ötəcək, ata-oğul qəhrəmanlığı əbədi oxunacaq dastanlara çevrilib, nəsillərdən-nəsillərə keçəcək. Bax, beləcə yaşadılır xalqımızın qəhrəmanlıq ənənələri. Onların keçdiyi şərəfli ömür yolu ordumuzun hər bir əsgər və zabitinə ən böyük örnəkdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

*Əsgərə məktub*

# Sən qələbə qazanmağa qadirsən, Azərbaycan əsgəri!



**Azərbaycan əsgəri!**

Bu söz, bu ifadə necə də iftixarla səslənir! Bu adda böyük bir qürur var, qalibiyyət var, zəfər var. Bu sənin adındır, yurdumuzu, torpağımızı qoruyan, Azərbaycan əsgəri! Tarix boyu sənin adın hər yerdə hörmətlə, izzətlə çəkilib, bundan sonra da çəkiləcək. Azərbaycan əsgəri, bu günə qədər sənin qəhrəmanlığının şərəfinə neçə-neçə dəyərli əsərlər yazılıb, mahnılar qoşulub, abidələr ucaldılıb. Sənin qəhrəmanlığın bundan sonra da zaman-zaman vəsf olunacaq, adın dillərdən düşməyəcək.

Azərbaycan əsgəri, bu gün xalqımız sənə müqəddəs və şərəfli vəzifələr tapşırıb. Bu gün sən göz qırpmadan Vətənin keşiyində dayanırsan. Yurdun sədaqətli, mətanətli keşikçisisən. Bu, sənin qoynunda dünyaya göz açdığın Vətənindir, bu, babalarının sənə ərməğan qoyduğu torpağındır. Sən vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirərək torpaqlarımızı erməni işğalçılarından müdafiə edirsən. Müharibə şəraitində yaşadığımız bu günlərdə xalq sənə güvənir və inanır ki, sən üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gələcəksən.

Azərbaycan əsgəri, inanıram ki, hər biriniz Mübariz İbrahimov kimi qəhrəmanlıqlar göstərməyə hazırsınız, buna qadirsiniz. Bunu tariximizə qəhrəmanlıq səhifəsi kimi yazılmış Aprel və Günnüt zəfərləri, Tovuz döyüşləri də bir daha aydın şəkildə göstərdi. Həmin döyüşlərdə siz Azərbaycan əsgərləri düşmənin hücumunu dəf edərək onu geri oturtdunuz. Ermənilərə sarsıdıcı zərbələr vurdunuz, qəsbkarların xeyli canlı qüvvəsini məhv etdiniz, döyüş texnikalarını sıradan çıxardınız. İşğalçı qüvvələr gücünüz, qüdrətiniz qarşısında aciz duruma düşdü. Bu belə də olmalıydı, belə də olacaq! Çünki siz hər an döyüşə, yurdu qorumağa hazırsınız. Azərbaycan əsgəri, sən qəhrəmansan, sən igidsən, sən düşmən üzərində qələbə qazanmağa qadirsən. Sən doğma torpağın uğrunda vuruşursan, sən Vətəninin ərazi bütövlüyü uğrunda döyüşürsən. Bu, çox şərəfli və müqəddəs bir vəzifədir. Yolun uğurlu olsun, Azərbaycan əsgəri! Savaşın, mübarizən, müharibən Şuşada Böyük Qələbə ilə başa çatsın!

Azərbaycan əsgəri, illərdən bəridir erməni işğalında qalmış doğma Qarabağ, Ağdam, Kəlbəcər, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan, Laçın və başqa bölgələrimiz sənin yolunu gözləyir. Sən Aprel və Tovuz zəfərlərinlə bu bölgələrə gedən yollara doğru inamlı addımlar atdın. Cəsarət və qəhrəmanlığınla göstərdin ki, bu işğala son qoymağı bacaracaqsan. Azərbaycan əsgəri, sən qalibiyyət yolunun başlanğıcındasan, qələbənin yaxınlığındasan! Addımlarını daha da inamla at, şücaətinlə, hünərinlə tarixin səhifələrini daha da möhkəm silkələ, daha da möhkəm titrət. Özünə inan, özünə güvən! Çünki sən güclüsən, sən qüdrətlisən, sən məğlubedilməzsən! Ona görə də sən rəşadətli, cəsarətli addımlarınla qələbəyə gedən yolları sonacan gedəcəksən. Babalarımızın, atalarımızın qəhrəmanlığı sənin canında, qanında yaşayır. Azərbaycan əsgəri, sən Vətən qarşısındakı övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirəcəksən.

Azərbaycan əsgəri, düşmənə qalib gəlmək üçün sən daim təlim və məşqlərdə döyüş hazırlığını artırırsan. Şükürlər ki, təlim keçmək üçün bu gün Silahlı Qüvvələrimizin ən müasir tələblərə cavab verən təlim mərkəzləri fəaliyyət göstərir. Sən təlimlərə həvəslə, qələbə ovqatı ilə qatılırsan. Hərbi texnikanın, silahların sirlərini dərindən öyrənirsən. Böyük sərkərdə Atatürk təlimlərə böyük önəm verərək demişdir: "Təlimdə tər tökən döyüşdə qan tökməz." Sən də türk dünyasının iftixarı olan Atatürkün dəyərli məsləhətinə əməl et, təlimdə çox tər tök ki, düşmən üzərində qələbəni qan tökmədən asanlıqla qazanasan. Döyüşlərdə öz qanını yox, düşmənin qanını tökəsən.

Azərbaycan əsgəri, ölkəmizin iqtisadiyyatı daim inkişaf edir. Artıq Azərbaycan özü silah istehlak edən ölkədən, silah istehsal edən dövlətə çevrilib. Bu gün sənin əlindəki silah ölkəmizin istehsalıdır. Bu, sənin üçün daha bir üstünlükdür. Sən torpağımızı zəbt etmiş ermənini öz silahımızla məhv edəcəksən. Qoluna qüvvət, Azərbaycan əsgəri! Sən əsasını ümummilli liderimiz Heydər Əliyevin qoyduğu güclü, qüdrətli bir ordunun əsgərisən. Qüdrətli ordunun qüdrətli, məğlubedilməz əsgərisən!

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# 35 mm-lik özüyeriyən "Korkut" zenit qurğusu



Özüyeriyən "Korkut" zenit qurğusu Türkiyənin Müdafiyə Nazirliyinin sifarişi ilə "Aselsan" və "FNSS" şirkətlərinin sıx əməkdaşlığı nəticəsində yaradılıb. İlk dəfə olaraq bu qurğu Türkiyədə keçirilən "İDEF-2013" sərgisində nümayiş etdirilib. "Korkut" özüyeriyən zenit qurğusu özündə "MKEK" şirkəti tərəfindən hazırlanmış 35 mm-lik qoşalaşmış topla birlikdə qülləni təsvir edir və "FNSS" şirkətinin hazırladığı ASV-30 tırtıllı zirehli transportyorun şassisində quraşdırılıb. Onun qülləsində müxtəlif hava şəraitində hədəfləri ələ keçirmək üçün müşahidə radiolokasiya sistemi və optik-elektron stansiya quraşdırılıb. 35 mm-lik topun atəş tempi dəqiqədə 1100 atış təşkil edir. "Korkut" özüyeriyən zenit qurğusunun heyəti komandir, tuşlayıcı və sürücüdən ibarətdir. Hansı ki, onlar maşının şassində əyləşirlər. Atəşi idarəetmə radar sistemi yuxarı hissədə qüllənin arxasında quraşdırılıb. Teplovizor və gündüz kamerası ilə birlikdə atəşi idarəetmə sistemi isə sağ tərəfdə yerləşdirilib. "Korkut" qurğusunda 600 at gücündə mühərrik quraşdırılıb və avtomat transmissiya ilə birləşdirilib. Bu da ona maksimal sürəti saatda 65 kilometrə qədər qaldırmağa imkan verir. Onun ehtiyat hərəkəti isə 500 kilometrə qədərdir.



ASV-30 şassisi unikal çoxlaylı zireh sistemi ilə təchiz edilib. Burada STANAĞ 4569 (2 və 4-cü dərəcəli) mina partlayışlarına uyğun olan atıcı silah atəşindən qorunmaq üçün zirehi polad və alüminiumla birləşdirilib. Maşın tam üzməyə qadirdir və korpusun arxa hissəsində yerləşdirilmiş iki ədəd fəvvarənin köməyi ilə maksimal olaraq sürəti saatda 6 kilometr olmaqla hərəkət edir.

"Korkut" zenit özüyeriyən qurğunun texniki xüsusiyyətlərinə gəldikdə isə onun çəkisi 29500 kiloqram, uzunluğu 7070 mm, eni 3900 mm, korpusa qədər olan hündürlüyü 2200 mm, ümumi hündürlüyü isə 3620 mm-dir. "Korkut" zenit qurğusu 0,9 metrlik divar maneələrindən keçməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Yay aylarında Türkiyə ərazisində və ölkə xaricində 277 terrorçu zərərsizləşdirilib



Yay aylarında Türkiyə Silahlı Qüvvələrinin ölkə ərazisində və xaricində apardığı antiterror əməliyyatları zamanı YPG-PKK terror təşkilatının 277 üzvü zərərsizləşdirilib.

Bölgədə sabitliyin, eləcə də sərhədlərin və yerli əhalinin təhlükəsizliyinin qorunması üçün aparılan əməliyyatlar nəticəsində zərərsizləşdirilənlər arasında terror təşkilatının rəhbərliyində yer alan şəxslər də var. Onlardan biri PKK-nın İraqın şimalındakı Hakurk bölgəsi üzrə lideri "Agit Garzan" ləqəbli Murat Kalkodur.

Əməliyyatlar zamanı terrorçulara aid sığınacaqlar ələ keçirilib.

### ABŞ-da 28 nəfər meşə yanğınlarının qurbanı olub



ABŞ-ın qərb ştatlarında son həftələr ərzində tüğyan edən təbiət yanğınları səbəbindən azı 28 nəfər həyatını itirib.

Ən çox ölüm halları Kaliforniya ştatında qeydə alınıb. Orada meşə yanğınları 19 nəferin həyatına son qoyub. Onların çoxu son bir neçə gündə həlak olub.

Hazırda Amerikanın qərb ştatlarında 100-dən çox yanğın ocağı var. Ən ağır vəziyyət Kaliforniyada, həmçinin Oreqon və Vaşinqtonda müşahidə edilir. Milli idarələrarası yanğın mərkəzinin məlumatına görə, yanğınlar 1,9 milyon hektardan çox ərazini əhatə edir.

Ağ evin mətbuat katibinin müavini Cadd Dir bildirib ki, ABŞ Prezidenti Donald Tramp yanğınlarla bağlı vəziyyəti yerində öyrənmək üçün sentyabrın 14-də Kaliforniyaya gedəcək.

### Gürcüstanda intihar halları artıb



Cari ilin birinci yarısında Gürcüstanda intihar halları artıb. Yanvarın 1-dən iyunun 30-dək ölkədə 162 nəfər özünə qəsd edib. Onlardan 125-i kişilərdir.

Bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb.

Bildirilir ki, altı ayda 254 nəfər intihara cəhd edib. İntihar edənlərin biri Rusiya, biri Tailand qalanları isə Gürcüstan vətəndaşladır. Ən çox intihar halları paytaxt Tbilisidə qeydə alınıb. İkinci yerdə Sameqrelo-Zemo Svaneti, üçüncü yerdə isə Kvemo Kartli regionu dayanır.

### Konqoda qızıl mədəninin çökməsi nəticəsində azı 50 nəfər ölüb



Konqo Demokratik Respublikasında leysan yağışları səbəbindən qızıl mədəni çöküb. Qəza nəticəsində azı 50 nəfər həlak olub.

Faciənin cümə günü yerli saatla 15 radələrində baş verdiyi bildirilir.

Həmin ərəfədə mədənin yerləşdiyi Cənubi Kivu əyalətində güclü yağışlar yağıb. Yayılan məlumata görə, ölənlərin əksəriyyəti gənc insanlardır. Kamituqi şəhərinin meri bildirib ki, hələlik ölənlərin dəqiq sayı bilinmir.

Şəhərdə ikigünlük matəm elan olunub, hakimiyyət orqanları yerli sakinləri həlak olanların cəsədlərinin mədəndən çıxarılmasına kömək etməyə çağırıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 538
Nüsxə 3960